# «AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN YARADILMASI HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2007-Cİ İL 19 MART TARİXLİ 560 NÖMRƏLİ FƏRMANINA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №3, maddə 239; 2008-ci il, №1, maddə 4, №3, maddə 168, №8, maddə 722, №11, maddə 970; 2009-cu il, №1, maddə 11) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə»yə aşağıdakı əlavələr və dəyişikliklər edilsin:
1.1. 1-ci bənddə «həyata keçirən» sözlərindən sonra «, hüquq mühafizə orqanı statusu olan» sözləri əlavə edilsin;
1.2. aşağıdakı məzmunda 8.3-1-ci bənd əlavə edilsin:
«8.3-1. hüquq mühafizə fəaliyyətini həyata keçirir;»;
1.3. 9.16-cı bənddə «tədbirlər görmək» sözlərindən sonra «, zəruri hallarda miqrasiya sahəsində qanunvericiliyi pozmuş əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri inzibati qaydada tutmaq» sözləri əlavə edilsin;
1.4. 9.17-ci bənddə «çıxarılması və» sözləri «çıxarılması barədə qərar qəbul etmək və onun icrasını təmin etmək, habelə» sözləri ilə əvəz edilsin;
1.5. 13-cü bənddən «dövlət qulluğu haqqında» sözləri çıxarılsın;
1.6. aşağıdakı məzmunda 16.12-1-ci və 16.12-2-ci bəndlər əlavə edilsin:
«16.12-1. Dövlət Miqrasiya Xidmətinə işə qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi məsələsini həll edir;
16.12-2. Dövlət Miqrasiya Xidmətinin işçilərinə xüsusi rütbələr və ixtisas dərəcələri verir, ali xüsusi rütbələr verilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;».
**2.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:
2.1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçmə haqqında Əsasnamə layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
2.2. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
2.4. öz səlahiyyətləri daxilində bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
**3.** Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 aprel 2009-cu il.

*“Azərbaycan” qəzetində dərc edilmişdir (9 aprel 2009-cu il, № 74).*